შეფასებისა და გამოცდების
ეროვნული ცენტრი

Vahid Milli İmtahanlar

iyul, 2026

# Ümumi qabiliyyət testi

Təlimat

Qarşınızdaki imtahan testinin elektron bukletidir.

Test iki – verbal və riyaziyyat – hissədən ibarətdir.

Hər hissəsi 40 tapşırıqdan ibarətdir. Hər tapşırığın ehtimal olunan dörd və ya beş cavabı vardır. Onlardan ancaq biri düzgündür.

**Testin hər hissəsini işləmək üçün sizə 1 saat 35 dəqiqə vaxt verilir.**

Hər bir tapşırığın təlimatını diqqətlə oxuyun, tapşırığı yerinə yetirmək üçün nə tələb olunduğunu yaxşı düşünün və sonra savabı seçin və yazın.

**Testin maksimal xalı – 80-dır.**

**Uğurlar arzulayırıq!**





# Verbal hissə

# Məntiq

*Bu tip tapşırıqlar ilkin məlumatlar və çıxarılacaq nəticələr baxımından bir-birindən fərqlənir. Buna görə hər bir tapşırıqda olan suala xüsusi diqqət yetirin və verilmiş variantlardan müvafiq cavabı seçin.*

*Məlumatların çertyoj və ya diaqram formasında təsvir olunması bəzi suallara cavab verilməsini asanlaşdıracaq.*

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**1.** Müddəalar verilib:

- Bəzi evlər taxta materialdan tikilib.
- Taxta materialdan tikilmiş heç bir bina kirəmitlə örtülməyib.

*Əgər verilən müddəalar doğrudursa, aşağıda sadalananlardan hansı **mütləq doğru olacaq**?*

a) Kirəmitlə örtülü bəzi binalar evdir;

b) Bəzi evlər kirəmitlə örtülü deyil;

c) Kirəmitlə örtülü bəzi binalar taxtadandır;

ç) Bütün evlər kirəmitlə örtülüdür;

d) Kirəmitlə örtülü bütün binalar evdir.

**2.** Xəritədə dörd rənglə - qırmızı, sarı, göy və yaşıl ilə Gürcüstanın dörd bölgəsi - Quriya, Kaxeti, İmereti və Sameqrelo qeyd olunub, hər bir rənglə - bir bölgə.

Verilib:

- NəQuriya, nə də Sameqrelo sarı rənglə qeyd olunub.
- İmereti qırmızı rənglə qeyd olunub.

*Aşağıda sadalananlardan hansı* ***mümkünsüzdür?***

a) Quriya yaşıl rənglə qeyd edilib;
b) Sameqrelo yaşıl rənglə qeyd edilib;
c) Sameqrelo göy rənglə qeyd edilib;
ç) Kaxeti göy rənglə qeyd edilib;
d) Kaxeti sarı rənglə qeyd edilib.

**3.** Dialoq verilmişdir:

**Elene:** Kompüter oyunlarının əksəriyyəti uşağın inkişafı üçün zərərlidir, çünki zorakılığı təbliğ edir. Bu zərəri nəzərə almaq əyləncə baxımından uşağın belə oyunlardan əldə edə biləcəyi faydadan daha önəmlidir.

**Zaza:** Mən səninlə razı deyiləm, düşünürəm ki, kompüter oyunları uzaqgörənliyi, məntiqi təfəkkürü inkişaf etdirir və eyni zamanda uşaqlar üçün əyləncəlidir.

*Hər ikisi aşağıdakı müddəalardan hansı ilə **razılaşır**?*

a) Uşaqlar kompüter oyunları vasitəsilə aqressiv davranışı öyrənirlər;
b) Bəzi kompüter oyunları uşaqlar üçün zərərlidir;
c) Kompüter oyunlarının hamısı təfəkkürü inkişaf etdirir;
ç) Kompüter oyunlarının heç biri faydalı deyil;
d) Bəzi kompüter oyunları uşağı əyləndirir.

**4.** Verilmişdir:

- Dağda bəzi çaylar çox itidir.
- Dağdakı bütün iti çayların suyu çox soyuqdur.
- Dağda bütün çayların sahilində böyürtkən yetişir.

Aşağıda sadalananlardan hansı bu müddəalardan **irəli gəlir**?

a) Çox iti olan bütün çayların sahilində böyürtkən yetişir;

b) Dağda bəzi çaylar iti deyil;

c) Dağda bəzi çayların suyu çox soyuq deyil;

ç) Sahilində böyürtkən yetişən bəzi çaylarda su çox soyuqdur;

d) Suyu çox soyuq olan bütün çox iti çaylar dağa axır.

**5.** Yeni modelə əsasən, rəssamlar müəyyən məbləğ müqabilində əsərlərinin onlayn qalereyalarda sərgiləndirilməsinə icazə verirlər, bu da alıcıların çoxlu sayda əsərə əlçatanlığını təmin edir. Uzun illər ərzində əsərlərini satan bəzi rəssamlar yeni modeldən narazıdır, çünki onların əsərlərinin qiyməti azalıb. Mədəniyyət liderləri belə nəticəyə gəliblər: **buna baxmayaraq, bütövlükdə rəssamlar yeni modellə əvvəlkindən daha çox pul qazanırlar.**

*Aşağıdakı məlumatlardan hansı verilən nəticənin **doğruluğunu ən çox əsaslandıracaq**?*

a) Yeni modelə əsasən, qalereya sahibləri hər bir əsər üçün daha az ödəyir, bu da rəssamlara daha az gəlir gətirir;
b) Bəzi rəssamlar köhnə model əsasında qazandıqlarından daha çox pul qazanmaq istəyirlər;
c) Rəssamlar yeni modelin sayəsində daha çox əsər satırlar, nəinki köhnə modellə;
ç) Köhnə modeldən hələ də istifadə etmək olar və rəssamlara yeni modeldən daha çox gəlir gətirəcək;
d) Yeni modelin köməyi ilə satış vergilərlə müşayiət olunur, bu da son nəticədə rəssamlardan daha çox xərc tələb edir.

## Cümlələrin tamamlanması

*Verilmiş cümlələrdə bir neçə söz buraxılmışdır. Buraxılmış sözlər cümlədə xətlərlə göstərilmişdir. Bir xətdə bəzən bir söz, bəzən isə bir neçə söz nəzərdə tutulur.*

*Ehtimal olunan cavabların hər variantı sözlər qrupunu əhatə edir, onun hissələri bir-birindən sağa əyilmiş xətlərlə – sləşlə (/) müəyyən edilmişdir. Cavablarda elə variant seçin ki, onun hər hissəsinin ardıcıllıqla düzülməsi ilə müvafiq buraxılmış yerlərdə fikir etibarı ilə düzgün cümlə alınsın.*

**6.** Bizə ________ görünə bilər, amma həddən artıq qayğı göstərmək uşağı __________. Onun immun sistemi ________və o, ətraf mühitdəki çağırışlarla mübarizə aparmaq bacarığını ________.

a) paradoksal da / qorumur, ona zərər verir / zəifləyir / əldə edə bilmir

b) qanunauyğun / qorumur, ona zərər verir / güclənir / əldə edə bilmir

c) paradoksal da / zərərlə üzləşdirmir, onu qoruyur / zəifləyir / əldə edir

ç) qanunauyğun / qorumur, ona zərər verir / güclənir / əldə edir

**7.** Təkbaşına ov edən bir çox digər _______, canavar yalnız _______ ov edərkən uğurlu ovçu olur, bu isə ov zamanı _______ nəzərdə tutur.

a) yırtıcılardan fərqli olaraq / qrup şəklində / funksiyaların bölünməsini
b) yırtıcılar kimi / qrup şəklində / müstəqil hərəkəti
c) yırtıcılar kimi / tək / birgə hərəkəti
ç) yırtıcılardan fərqli olaraq / tək / yoldaşların fəallığını

**8.** Sizin bu və ya digər hərəkəti edib-etməyəcəyinizin ehtimalı qarşıya qoyulan məqsədin əldə edilmə gözləntisindən və həm də bu məqsədin sizin üçün nə kimi əhəmiyyət daşıdığından irəli gəlir. ________, müəyyən məqsədi əldə etmək üçün hərəkətin ehtimalı onu _______ hesab etdiyimizdə ______, şəxsən ______ ən _____ olur.

a) Buna baxmayaraq / az real / amma / bizə az dəyərli olanda / yüksək

b) Buna baxmayaraq / tamamilə qeyri-real / və bununla yanaşı / bizə az dəyərli olanda / az

c) Müvafiq olaraq / real / və bununla yanaşı / bizə çox dəyərli olanda / yüksək

ç) Müvafiq olaraq / tamamilə qeyri-real / amma / bizə çox dəyərli olanda / az

**9.** Universal təlim-tərbiyə dəyəri ola bilən bir metod _____ - təhsil alanın olduğu konkret inkişaf pilləsi __________. Eyni bir şey tədrisin _____ mərhələsində eyni şəkildə effektiv ___________.

a) yoxdur / heç bir metod üçün əsas deyil / bütün/ ola bilməz

b) yoxdur / şübhəsiz nəzərə alınmalıdır / bütün / olmayacaq

c) vardır / həlledici əhəmiyyətə malikdir / müxtəlif / ola bilər

ç) vardır / heç bir metod üçün vacib deyil / müxtəlif / olmayacaq

## Oxunmuş mətnin düşünülməsi

*Mətni diqqətlə oxuyun və düşünün. Hər sualın ehtimal olunan cavablarından verilmiş mətnə görə düzgün variantı seçin.*

*Bu və ya digər sualla tanış olduqdan sonra suala cavab vermək üçün mətnə qayıtmaq, müvafiq parçanı yenidən oxumaq və suala keçmək lazım gələ bilər. Bunu mətnin, eləcə də hər sualın sonunda verilmiş müvafiq qeydi "basmaqla" asanlaşdıra bilərsiniz.*

I İyirminci əsrin 60-cı illərində **lamantinlər,** demək olar ki, Floridadan yox oldular. Bu otyeyən dəniz məməliləri nadir hallarda gözə dəyirdi. Lamantinlər heyvanlar aləminin anomaliyasını* təqdim edir. Nə özləri yırtıcılıq edir, nə də başqalarının şikarı olurlar. 4 metrə yaxın böyüyən və 900 kiloqramdan artıq çəkisi olan bu sülhsevər heyvanların təkamül baxımından aqressiyaları inkişaf etməyib.

II İyirminci əsrin 60-cı illərində Florida sahilində lamantinlərin minə qədər fərdlərini saymaq olardı, bu gün isə onların sayı 7500-ə qədər artıb. **Kristal-River** (Floridada şəhər) lamantinlərin xilasının episentridir. Floridanın 22 milyonluq əhalisinin dörddə üçü sahil zolağında – lamantinlərin ən əsas yaşayış mühitində yaşayır. Buradakı sular tikinti materialları və əkin sahələrindən yuyulub aparılan gübrələrin nəticəsində məişət tullantılarına bulanmışdı. Lamantinlərin başlıca qidası olan dəniz otu da məhv olmuşdu. Lamantinlərin yaşadıqları mühiti bərpa etməklə, onlar haqqında informasiya yaymaqla və katerlə toqquşma hallarının qarşısının alınmasını təmin edən qaydaları qəbul etməklə populyasiyanı artırmaq mümkün oldu. Tədqiqatçıların qiymətləndirməsinə əsasən, ortalama 40 illik həyatları ərzində Floridanın yetkin lamantinlərinin 96%-i ən azından bir dəfə gəmiyə dəyib.

III 1978-ci ildə Florida ştatı lamantinlərin "sığınacağı və qoruğu" adını aldı və müvafiq akt əsasında, istisulu qış sığınacaqlarında katerlərin sürətinə məhdudiyyət qoyuldu. National Geographic-in tədqiqatçıları tərəfindən əldə edilən məlumat Floridada Lamantinlərin Konservasiyası Hərəkatının əsasını qoydu. "Lamantinlərin Xilası Klubu" hərəkatın başına keçdi. Müxtəlif qruplar bu heyvanı və onun yaşayış mühitini müdafiə edən tənzimləmələri ciddiləşdirmək üçün məhkəmə proseslərini aparırdılar. 2011-ci ildən etibarən isə Kristal-Riverdə qayıqların daim aşağı sürətlə hərəkət etməsi tələb olunur. Bu xarizmatik heyvanlar qütbləşməyə səbəb oldular. Bir tərəfdən onların müdafiəçiləri, digər tərəfdən isə – investorlar, biznes maraqları və Florida sularında məhdudiyyətsiz hərəkət etmək istəyən katerlə üzmək həvəskarları. Bu qarşıdurma "**Lamantinlər müharibəsi**" adı ilə tanınır.

Suallara keçid: 10 11 12 13 14 15 16 17 18 19 20

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**IV** Yaşayış mühitinin mühafizəsi və katerlərin sürətinin məhdudiyyəti nəticə verdi və lamantinlərin populasiyası artdı. Amma qarşıda onları başqa təhlükələr də gözləyirdi: ətraf mühitin dəyişdirilməsi, su bitkilərinin çiçəklənməsi, iqlim dəyişkənliyi, çoxalan tikililər və bunların sahilə təsiri. Ətraf mühitin bu problemlərinə nəzarət etmək olduqca çətin idi. İndian-Riverin (Floridada çay) **laqunasında** 2011-2019-cu illərdə dəniz otu yox oldu, bəzi yerlərdə – 90%-dən çox. Çox soyuq keçən 2010-cu ilin qışında isə yüzlərlə lamantin məhv oldu. Növbəti illərdə temperatur artdı və lamantinlərin qidalanması üçün yararsız olan mikro su bitkiləri çoxaldı. Onlar çoxalır və qalın xalça kimi suyu elə örtürdü ki, günəş şüaları suyun altına, dəniz otuna qədər çata bilmirdi. Lamantinlərin oazisi bataqlığa çevrildi.

**V** Sahildəki sakinlər çayı mikro su bitkilərindən təmizləməyə başladılar, təbiət mühafizəçiləri lamantinləri yedizdirmək üçün (bir lamantin gündə 45 kq dəniz otu yeyir) suya çoxlu miqdarda dəniz otu atırdılar. Sonra da Kristal-Riverin Müdafiə Təşkilatının başçılığı ilə dəniz otu – **valisneriyanın** əkilməsinə başlandı – 350 000 valisneriya şitili əllə əkildikdən sonra, onlar yenə də çayı ekosistemə çevirdilər və mikro su bitkiləri burada üstünlük təşkil etmirdi. İndi lamantinlər Kristal-Riverdə yalnız qış aylarını keçirmək və sonra "otlamağa" Meksika körfəzinə yola düşmək əvəzinə, il boyu burada qalır, yaxşı qidalanır və şəhərin turizmini canlandırırlar.

*Anomaliya – qanunauyğunluğun pozulması; ümumi qaydadan, normadan kənara çıxma.

**Suallara keçid:** 10 11 12 13 14 15 16 17 18 19 20

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**10.** Nə üçün lamantinlər heyvanlar aləminin **anomaliyasını** təqdim edir?

a) Lamantinlər sülhsevər heyvandır;

b) Lamantinlər 4 metrə qədər böyüyür və çəkiləri 900 kq-dan çox olur;

c) Lamantinlər nə yırtıcıdırlar, nə də başqa yırtıcıların qurbanı olurlar;

ç) Lamantinlərin digər heyvanlara qarşı təkamül baxımından aqressiyaları inkişaf edib.

Mətnin I səhifəsinə qayıtmaq

Mətnin II səhifəsinə qayıtmaq

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**11.** II abzasda Florida əhalisinin sayı hansı məqsədlə vurğulanır?

a) Floridanın sahil zolağı sıx məskunlaşıb və insanın ətraf mühitə təsiri lamantinlərin yaşayış mühitinə mühüm dərəcədə ziyan vurur;
b) Florida sahilində tikinti materialı tullantıları həddən çox miqdarda olduğuna görə lamantinlərin əsas qidası – dəniz otu məhv oldu;
c) Florida sahil zolağının 22 milyonluq əhalisi lamantinlərin yaşayış mühitini bərpa etməyə və məişət tullantılarından qorumağa cəlb edildi;
ç) Florida sahilində katerlə toqquşma hallarının qarşısının alınmasını təmin edən qaydalar qəbul edildi.

Mətnin I səhifəsinə qayıtmaq
Mətnin II səhifəsinə qayıtmaq

**12.** Aşağıda sadalananlar arasında hansı **doğru deyil?**

"**Lamantinlər müharibəsi**" aşağıdakı qarşıdurmaya deyilirdi:

a) İnvestorlarla Florida sularında məhdudiyyətsiz hərəkət etmək istəyən katerlə üzmək həvəskarları arasında;
b) Gəmiçilik biznesi ilə Florida ştatını lamantinlərin sığınacağı və qoruğu elan edən mütəxəssislər arasında;
c) İnşaat biznesi ilə lamantinlərin yaşayış mühitini qoruyan tənzimləmələrin ciddiləşməsini dəstəkləyən qruplar arasında;
ç) Konservasionist-bioloqlarla biznes maraqlarının müdafiəsi uğrunda məhkəmə proseslərini aparan qruplar arasında.

Mətnin I səhifəsinə qayıtmaq
Mətnin II səhifəsinə qayıtmaq

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**13.** Nə üçün lamantinlərin oazisi bataqlığa çevrildi?

a) 2010-cu ildə xüsusilə soyuq qış oldu və Florida sahilində yüzlərlə lamantin məhv oldu;

b) Lamantinlərin yaşayış mühiti dəyişdirildi, çoxalan tikililər laqunanın ekosisteminə təsir göstərdi;

c) 2010-cu ilin qışından sonra temperatur artdı və dəniz otu qeyri-adi şəkildə çoxaldı;

ç) Mikro su bitkiləri suyu xalça kimi örtürdü və günəş şüaları dəniz otlarına çata bilmirdi.

Mətnin I səhifəsinə qayıtmaq

Mətnin II səhifəsinə qayıtmaq

**14.** Məlumatla tanış olun: "**İnsanlar üçün barmaq izi nədirsə, lamantinlər üçün də çapıqlar odur**", - "Lamantinlərin Xilası Klubu"-nun üzvü **Ueyn Hartli** deyir və fotonu göstərir. Fotoda quyruğu katerin pərləri tərəfindən zədələnmiş lamantin təsvir olunub.

*Ueyn Hartlinin sözləri nəyə işarə edə bilər?*

a) Lamantinləri böyük gəmi ilə toqquşmadan çox katerlə toqquşma zədələyir;
b) Hər bir fərdin çapığı "Lamantinlər müharibəsi nəticəsində yaranıb;
c) Lamantinləri öyrənən bioloqlar fərdləri çapıqları ilə ayırırlar;
ç) "Lamantinlərin Xilası Klubu" toqquşmaların qarşısını almaq üçün qaydalar qəbul edir.

Mətnin I səhifəsinə qayıtmaq
Mətnin II səhifəsinə qayıtmaq

**15**. İndian-River laqunasında lamantinlərin populyasiyasının bərpasına nə şərait yaratdı?

a) Təbiət müdafiəçiləri laqunada katerlərin hərəkət sürətinə nəzarət edirdilər;

b) Lamantinlər qış aylarını Meksika körfəzinin "otlaqlarında" keçirirdilər;

c) Mikro su bitkilərinin üstünlük təşkil etdiyi ekosistem yaratdılar;

ç) Çayı mikro su bitkilərindən təmizlədilər və çoxlu valisneriya əkdilər.

Mətnin I səhifəsinə qayıtmaq

Mətnin II səhifəsinə qayıtmaq

## Analogiyalar

Aşağıda verilmiş analogiya tipli tapşırıqlarda istifadə olunmuş sözlərdən bəzilərinə mətndə rast gəlirik (belə hallarda sözün yanında müvafiq abzas göstərilir). Hər tapşırıqda nə tələb olunduğunu diqqətlə oxuyun və düzgün cavabı seçin. Mətn tapşırığın düzgün yerinə yetirilməsində sizə kömək edə bilər.

**16.** Aşağıda sadalananlar arasında hansı cütlükdə – **Yırtıcı : sülhsevər** sözlər cütlüyündə olduğu kimi eyni yanaşma var?

a) İynəyarpaqlı : həmişəyaşıl

b) Sahil : nəzarətdəki

c) Bulanıq : duru

ç) Yetkin : məməli

d) İqlim : uyğunlaşdırılmış

Mətnin I səhifəsinə qayıtmaq

Mətnin II səhifəsinə qayıtmaq

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**17.** Aşağıda sadalananlar arasında hansı cütlükdə – **Episentr : periferiya** sözlər cütlüyündə olduğu kimi eyni yanaşma var?

a) Meydan : xiyaban

b) Bağ : qazon

c) Kort : tor

ç) Şahmat : lövhə

d) Səhnə : pərdəarxası

Mətnin I səhifəsinə qayıtmaq

Mətnin II səhifəsinə qayıtmaq

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**18.** Aşağıda sadalananlar arasında hansı cütlükdə – **Valisneriya : ot** sözlər cütlüyündə olduğu kimi eyni yanaşmadır?

a) Magistral : cığır

b) Jurnal : məqalə

c) Afişa : elan

ç) Qüllə : saray

d) Çardaq : zirzəmi

Mətnin I səhifəsinə qayıtmaq

Mətnin II səhifəsinə qayıtmaq

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**19.** Aşağıda sadalananlar arasında hansı cütlükdə – **Qarşıdurma : münaqişə** sözlər cütlüyündə olduğu kimi eyni yanaşma var?

a) Razılaşma : konsensus

b) Müqavilə : barışıq

c) Güzəşt : anlaşılmazlıq

ç) Yürüş : strategiya

d) Kəşfiyyat : məlumat

Mətnin I səhifəsinə qayıtmaq

Mətnin II səhifəsinə qayıtmaq

**20.** Mətndən cümlələr verilib:

I. Lamantinlərin oazisi bataqlığa çevrildi;

II. Lamantinlər şəhərin turizmini də canlandırırlar;

III. Temperatur artdı və mikro su bitkiləri çoxaldı.

Bunların arasında **məcazi ifadə** hansı cümlədədir?

a) Yalnız I-də;

b) I-də və II-də;

c) Yalnız II-də;

ç) II-də və III-də;

d) Yalnız III-də.

Mətnin I səhifəsinə qayıtmaq

Mətnin II səhifəsinə qayıtmaq

## Məntiq

*Bu tip tapşırıqlar ilkin məlumatlar və çıxarılacaq nəticələr baxımından bir-birindən fərqlənir. Buna görə də hər tapşırıqda olan suala xüsusi diqqət yetirin və verilən variantlardan müvafiq cavabı seçin.*

*Göstəricilərin çertyoj, yaxud diaqram formasında təsviri bəzi suallara cavab verilməsini asanlaşdırar.*

**21.** Müddəa verilib:

- İtaliya muzeylərində yalnız orijinal əsərlər sərgilənib.

*Aşağıda sadalananlar arasında hansı bu müddəaya* ***ziddir****?*

a) Uffitsi qalereyasında orijinal əsərlər sərgilənib və o, İtaliya muzeyidir;

b) Uffitsi qalereyasında orijinal əsərlərin surətləri sərgilənib və o, İtaliya muzeyidir;

c) Uffitsi qalereyasında orijinal əsərlər sərgilənib və o, İtaliya muzeyi deyil;

ç) Uffitsi qalereyasında orijinal əsərlərin surətləri sərgilənib və o, İtaliya muzeyi deyil;

d) Uffitsi qalereyasında orijinal əsərlərin surətləri sərgilənməyib və o, İtaliya muzeyi deyil.

**22.** Nika yürüşə getməyə hazırlaşır və dörd əşyanı özü ilə aparmaq üçün kənara qoyub: çadır, fənər, papaq və yağmur plaşını.

- Çadır apardığı halda, fənəri də aparmalıdır.
- Fənər apardığı halda, yağmur plaşını da aparmalıdır.
- Papaq apardığı halda, yağmur plaşını da aparmalıdır.

Nika yürüşə yalnız bir əşya apardı.

*Nika yürüşə hansı əşyanı aparıb?*

a) Papağı;
b) Çadırı;
c) Fənəri;
ç) Yağmur plaşını;
d) Ya çadırı, ya fənəri.

**23.** Üç müddəa verilib:

I. Heç bir dəniz kurortunda metro yoxdur.

II. Zavod olan yaşayış məntəqələrinin hamısında metro var.

III. Qaqra dəniz kurortudur.

***Qaqrada zavodun <u>olmadığı</u>*** *nəticəsinə gəlmək üçün:*

a) I və III müddəalar kifayətdir;

b) I və II müddəalar kifayətdir;

c) II və III müddəalar kifayətdir;

ç) Hər üç müddəa birlikdə lazımdır;

d) Verilən üç müddəa kifayət deyil.

**24.** Dəftərxana ləvazimatlarını qutulara elə yerləşdiriblər ki, növbəti iki şərt yerinə yetirilir:

- Əgər birinci qutuya yaşıl və ya sarı (yaxud hər ikisi bu rəngdə) dəftərlər yerləşdirilibsə, bu halda ikinci qutuya pozanlar, üçüncüyə isə karandaşyonanlar yerləşdirilib.
- Əgər üçüncü qutuda karandaşyonanlar yerləşdirilibsə, bu halda həmin qutuda karandaşlar da olmalıdır.

Üçüncü qutu açıldıqda, məlum oldu ki:
Ona karandaşlar yerləşdirilməyib.

*Sadalananlardan hansı verilən müddəalardan **irəli gəlir**?*

a) Birinci qutuya yaşıl və sarı dəftərlər yerləşdirilib;
b) Birinci qutuya yalnız yaşıl dəftərlər yerləşdirilib;
c) Birinci qutuya yalnız sarı dəftərlər yerləşdirilib;
ç) Birinci qutuya heç nə yerləşdirilməyib;
d) Birinci qutuya nə yaşıl, nə də sarı dəftərlər yerləşdirilib.

**25.** Ninonun müşahidəsinə görə, əl əməyi ilə düzəldilən əşya fabrikdə hazırlanan əşyaya nisbətənbaha olur. Onun üçün əşyanın həm keyfiyyəti, həm də orijinallığı önəmlidir. Bunun əsasında qərara gəlib ki, **fabrikdə hazırlanmış alternativə nisbətən, hər zaman** əl əməyi ilə düzəldilən **əşyaya üstünlük versin.**

*Aşağıda sadalananlar arasında hansı Ninonun qərarının doğruluğunu **şübhə altına alır**?*

a) Əl əməyi ilə düzəldilən əşyaları, bir qayda olaraq, bu və ya digər incəsənət sahəsində çalışan insanlar hazırlayır. Onlar da zərif zövqləri ilə seçilir və buna görə də əşyanın estetik tərəfinə böyük önəm verirlər;

b) Fabrik qaydası ilə hazırlanmasına nisbətən, əşyaların əl əməyi ilə hazırlanmasına daha çox vaxt və səy lazımdır, çünki hər detala xüsusi diqqət yetirilir, bütün xırdalılqlar yaxşı düşünülür və səylə işlənir;

c) Fabrik qaydası ilə hazırlanmasından fərqli olaraq, əşyalar əl əməyi ilə hazırlandığında, keyfiyyətə nəzarət mexanizmləri az vurğulanır;

ç) Əllə işlədikdə, dəqiqliklə iki eyni əşya yaratmaq mümkün deyil, müvafiq olaraq, hər bir əl əməyi ilə düzəldilən əşya unikaldır, hər birində müəllifin imzası oxunur;

d) Fabrik qaydası ilə hazırlanmasından fərqli olaraq, əşyalar əl  əməyi ilə hazırlandıqda bir yandan da yararsız, köhnəlmiş görünən materialdan istifadə etmək və dəbli əl işi yaratmaq olar.

## Cümlələrin tamamlanması

*Verilmiş cümlələrdə bir neçə söz buraxılmışdır. Buraxılmış sözlər cümlədə xətlərlə göstərilmişdir. Bir xətdə bəzən bir söz, bəzən isə bir neçə söz nəzərdə tutulur.*

*Ehtimal olunan cavabların hər variantı sözlər qrupunu əhatə edir, onun hissələri bir-birindən sağa əyilmiş xətlərlə – sləşlə (/) müəyyən edilmişdir. Cavabın elə variantını seçin ki, onun hər hissəsinin ardıcıllıqla düzülməsi müvafiq buraxılmış yerlərdə fikir etibarı ilə düzgün cümlə versin.*

**26.** Əgər özünüzü xüsusilə xoşniyyətli bir şəxsiyyət kimi xarakterizə edirsinizsə, bu _____ ki, sizdən istənilən həyat şəraitində "xoşniyyətli" davranış _____ və _____, böyük ehtimalla, müxtəlif vəziyyətlərdə _____ sizin xoşniyyətliyiniz də _____.

a) məhz o deməkdir / gözlənilmir / əksinə / psixoloji xüsusiyyətlərə baxmayaraq / fərqli ola bilməyəcək

b) o demək deyil / gözlənilir / üstəlik / psixoloji xüsusiyyətlərə əsasən / fərqli olacaq

c) məhz o deməkdir / gözlənilir / üstəlik / psixoloji xüsusiyyətlərə baxmayaraq / fərqli olacaq

ç) o demək deyil / gözlənilmir / məhz buna görə / psixoloji xüsusiyyətlərə əsasən / fərqli olacaq

**27.** İmperiyalar, ticarət və ümumbəşəri dinlər müxtəlif qitələrdə yaşayan, demək olar ki, bütün insanları bugünkü qlobal aləmdə birləşdirdi. Qlobal cəmiyyətin yaradılması ola bilsin ki, _____, buna _____, bu, o _____ki, qlobal cəmiyyət məhz bu günkü kimi _____.

a) heç də labüd deyildi / baxmayaraq / deməkdir / olmalı deyildi

b) labüd idi / görə də / deməkdir / olmalı deyildi

c ) heç də labüd  deyildi / görə də / demək deyil / olmalı idi

ç) labüd idi / baxmayaraq / demək deyil / olmalı idi

**28.** Bədii əsərdə burada təsvir olunan əhvalatların _____ diqqət yetirilməlidir. _____ hekayənin özünün əsası da elə realllıqdır. O _____, ona görə ki, _____ .

a) nə dərəcədə real olduğuna / realist / realistdir / onda təsvir olunan, obyektiv şəkildə baş verən hadisələr dəyişdirilmişdir

b) nə dərəcədə real olduğuna / fantastik / fantastikdir /onun fantastikliyi realdır

c) reallıqdan nə dərəcədə uzaq olduğuna/ fantastik / reallığı dəqiq əks etdirir / onun fantastikliyi realdır

ç) yazıçının təxəyyülü ilə nə dərəcədə dəyişdirildiyinə / realistik/ obyektiv həqiqəti dəqiq əks etdirir / reallıqdan uzaqdır

**29.** Britaniya tərəfindən Hindistanın işğal olunması nəticəsində yüz milyonlarla hindistanlı uzunmüddətli istismarın qurbanına çevrildi. _____ bir çox hindistanlı, insan haqları kimi qərb ideyalarını _____ və _____, britaniyalıların öz açıq bəyan etdikləri dəyərlərini _____. Hindistan sakinlərinə _____ .

a) Lakin / həvəslə mənimsəyə bildi / buna görə / inkar etməkləri onlara azadlıq ümidi verdi / yalnız Britaniya təbəəsi kimi bərabər hüquqlar verildi

b) Müvafiq olaraq / heç cür mənimsəyə bilmədi / buna baxmayaraq / sərt şəkildə qoruduqları üçün onlara azadlıq ümidi verdi / nə Britaniya təbəəsi kimi bərabər hüquqlar verildi, nə də müstəqillik

c) Müvafiq olaraq / heç cür mənimsəyə bilmədi / buna görə / sərt şəkildə qoruduqları üçün ümidləri puç oldu / həm Britaniya təbəəsi kimi bərabər hüquqlar verildi, həm də müstəqillik

ç) Lakin / həvəslə mənimsəyə bildi / buna görə / inkar etməkləri onların ümidlərini çox puç etdi / nə Britaniya təbəəsi kimi bərabər hüquqlar verildi, nə də müstəqillik

# Oxunmuş mətnin düşünülməsi

*Mətni diqqətlə oxuyun və düşünün. Hər sualın ehtimal olunan cavablarından verilmiş mətnə görə düzgün variantı seçin.*

*Bu və ya digər sualla tanış olduqdan sonra suala cavab vermək üçün mətnə qayıtmaq, müvafiq parçanı yenidən oxumaq və suala keçmək lazım gələ bilər. Bunu mətni, eləcə də hər sualın sonunda verilmiş müvafiq qeydi "basmaqla" asanlaşdıra bilərsiniz.*

I İtaliyalı rəssam və alim Leonardo Da Vinçi quşların uçmaq xüsusiyyətini diqqətlə öyrənirdi. Onun uçuş aparatına aid olan eskizləri və qeydləri bizə qədər gəlib çatıb. O, ilk olaraq uçuşun nəzəri əsaslandırılmasını, havada ağır aparatların (helikopter, paraşüt) yaranma ideyasını bizə çatdırıb. Leonardonun belə bir ifadəsi var: "Quş bir növ aparatdır. Onun hərəkəti riyazi qanunlara tabedir. Müvafiq olaraq, insan belə bir aparatı yarada bilməlidir". Ona belə bir qeyd aiddir: "Milan qala-istehkamının yaxınlığındakı xəndəklərə get ki, iynəcələrin uçuşunu müşahidə edəsən". Bu sözlərdən bir neçə əsr keçdikdən sonra, iynəcələrin uçuş aparatının öyrənilməsi aviasiyanın gələcək inkişafı üçün çox mühüm olan bir sirri açdı.

II Məlumdur ki, təbiət quşun və ya həşəratın uçuş aparatını uzun müddət ərzində "quraşdırırdı". Quşun bədən çəkisi ilə qanadlarının açımı arasında müəyyən mütənasiblik var. Müxtəlif quşlar üçün qanadlarını çalmaq tezliyi də müəyyənləşdirilib. Məsələn, qanadlarının açımı bədəninin uzunluğundan, demək olar ki, 3 dəfə çox olan kərkəs bir saniyə ərzində bir dəfə qanad çalır, açılmış qanadları 1,5 dəfə bədənin uzunluğundan çox olan qırqovul, kəklik, bildirçin isə saniyədə qanadlarını 5 dəfə yellədir.

III Quşların inkişafı tarixi göstərir ki, bədənin nəhəng ölçüsü onlar üçün "qənaətcil deyil". Bədən ölçüsünün həddən çox böyüməsi kütləvi əzələ sistemi və skeletin inkişafına səbəb olur və müvafiq olaraq həddən artıq qida tələb edirdi. Bu da özlüyündə, heç də asanlıqla tapılan olmurdu. Bəzi iriölçülü quşlar üçün xarakterik olan nöqsanı da qeyd etmək lazımdır. Durnalar yerindən uça bilmirlər. Onlar yalnız yerdə bir neçə onluqlarla addım qaçdıqdan sonra uçurlar. Bəzi quşlar ağacların budaqlarından və ya qayalardan uçmağa başlayırlar. Buna baxmayaraq, insan tərəfindən yaradılan aparatlarla müqayisədə, qanadlılar çəkilərinə nisbətən daha az enerji sərf edirlər.

**Suallara keçid:** 30 31 32 33 34 35 36 37 38 39 40

IV Ötən əsrin 30-cu illərində havada tez-tez qəzalar baş verirdi. Alimlər aviafəlakət nəticəsində parçalanmış təyyarənin hissələrini öyrəndilər. Bu hissələrdə yanğın və ya partlayış izi görünmürdü. Məlum oldu ki, aviafəlakət təyyarənin düzgün quraşdırılmadığının nəticəsi idi. Təyyarə müəyyən sürəti aşdıqdan sonra, aerodinamik qüvvələrin təsiri ilə, onun qanadları titrəyişli hərəkətə, çırtıltıya və parçalanmağa başlayırdı. Bu hadisə "flater" (ing. - titrəmə) adlandırıldı.

V Qəribədir, amma faktdır ki, müasir təyyarələrin həşəratlarla daha çox ortaq cəhətləri var, nəinki quşlarla. İynəcələrin uçuş aparatının öyrənilməsi nəticəsində məlum olub ki, bu həşəratların qanadlarının uclarında qalınlaşma var və bunun təyinatı da, göründüyü kimi, həşəratın qanadının ağırlaşması, vibrasiyanın qarşısının alınması olmalıdır. Aviakonstruktorlar kəşfdən istifadə edib təyyarənin qanadlarını da ağırlaşdırdılar və bununla da flater təhlükəsinin qarşısını aldılar.

VI Müasir reaktiv uçuş aparatlarının sürəti istənilən canlı varlığın sürətini çox aşır. Sərnişin təyyarəsi iynəcədən 25 dəfə , kəpənəkdən isə 90 dəfə daha sürətli uçur. Amma məlum olub ki, təyyarə bir saatda öz uzunluğundan 15 000 dəfə çox, məsələn, sarıca arı (həşərat növü) isə öz uzunluğundan milyon dəfə çox olan məsafəni qət edir.

Suallara keçid: 30 31 32 33 34 35 36 37 38 39 40

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**30.** I abzasa əsasən, Leonardo Da Vinçi:

a) İlk olaraq uçuşun nəzəri əsaslandırılmasını verib və havada ağır aparatlar yaradıb: helikopter, paraşüt;

b) Quşların uçuşunun xüsusiyyətini öyrənib və quşun uçuş aparatını riyazi qanunlara tabe edib;

c) Canlı təbiət haqqında mövcud bilikdən istifadə edərək mühəndislik məsələlərinin həlli imkanına işarə edib;

ç) Aviasiyanın gələcək inkişafı üçün çox mühüm olan bir sirri açıb.

Mətnin I səhifəsinə qayıtmaq

Mətnin II səhifəsinə qayıtmaq

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**31.** II abzasda söhbət hansı mütənasiblikdən gedir?

a) Təbiət quşun uçuş aparatını nə qədər uzun müddət ərzində "quraşdırsa" da, onun qanadlarının açımı bir o qədər çox və qanadlarını çalmaq tezliyi bir o qədər azdır;

b) Quşun bədəninin çəkisi nə qədər çox olarsa, onun qanadlarının açımı da bir o qədər çoxdur və qanadlarını çalmaq tezliyi də çoxdur;

c) Quşun bədəninin uzunluğu nə qədər çox olarsa, onun qanadlarının açımı da bir o qədər azdır, amma qanadlarını çalmaq tezliyi böyükdür;

ç) Qanadların açımı quşun bədəninin uzunluğundan nə qədər çox olarsa, onun qanadlarını çalmaq tezliyi müəyyən zaman kəsiyində bir o qədər az olar.

Mətnin I səhifəsinə qayıtmaq

Mətnin II səhifəsinə qayıtmaq

1 2 3 4 5 6 7 8 9 10 11 12 13 14 15 16 17 18 19 20 21 22 23 24 25 26 27 28 29 30 31 32 33 34 35 36 37 38 39 40

**32.** Mətndə diqqət iri ölçülü quşlara xas olan qüsura yönəlib. Sadalananlardan hansı cümlə bunu ifadə edir?

a) İri ölçülü quşlar çəkilərinə nisbətən insan tərəfindən yaradılan aparatlardan daha az enerji sərf edirlər;

b) Bəzi iri ölçülü quşlar yalnız yerdə bir neçə addım qaçdıqdan sonra uça bilirlər;

c) Durnalar ağac budaqlarından uçmağa başlayırlar, halbuki bəzi hərbi təyyarələr yerindən uça bilirlər;

ç) İri ölçülü quşlara çoxlu qida tapmaq üçün kütləvi əzələ sistemi lazım olur.

Mətnin I səhifəsinə qayıtmaq

Mətnin II səhifəsinə qayıtmaq

**33.** Mətndə söhbət hansı uçuş aparatlarının aviafəlakəti haqqında gedir?

a) Həddən ağır qanadları olan düzgün quraşdırılmamış uçuş aparatlarından;

b) Kəpənəklərdən 90 dəfə daha sürətli uçan müasir reaktiv uçuş aparatlarından;

c) Ötən əsrin 30-cu illərində yanğın nəticəsində tez-tez partlayan təyyarələrdən;

ç) Qanadlarının vibrasiyası bütün aparatın parçalanmasına səbəb olan uçuş aparatlarından.

